# IX SİNİFDƏ KİMYA DƏRSLƏRİNİN KƏND TƏSƏRRÜFATI İLƏ ƏLAQƏLƏNDİRİLMƏSİ

**M.N.Hüseynov, E.N.Əlibəyli**

*Azərbaycan Dövlət Pedoqoji Universiteti*

IX sinifdə kimya dərslərinin kənd təsərrüfatı ilə əlaqələndirilməsində əsas məqsəd müəyyən mözuları tədris edərkən mövzu daxilindəki kimyəvi birləşmələrin kənd təsərrüfatındakı əhəmiyyətinə diqqət çəkmək, şagirdlərə kimyanın kənd təsərrüfatının müxtəlif sahələrində tətbiqinə dair məlumat vermək, istifadə olunan gübrələrin və dərman maddələrinin ekologiyaya vura biləcəyi ziyan barədə şagirdləri məlumatlandırmaqdan ibarətdir.

Məlumdur ki, kimya fənni üzrə ümumi təlim nəticələrinin reallaşdırılmasını təmin etmək üçün müəyyən olunan məzmun xətləri vardır. Bu məzmun xətlərindən biri də "kimya və həyat" məzmun xəttidir. "Kimya və həyat" məzmun xətti təbiətə və bütünlükdə bəşəriyyətə böyük zərər vura biləcək maddələrin müəyyənləşdirilməsini və onların həyatın istənilən sahəsində zərər vurmadan tətbiq olunmasını təmin edir. Müxtəlif sənaye sahələri tullantılarının, kənd təsərrüfatında işlədilən gübrələrin və dərman maddələrinin, nəqliyyatda tullantı qazlarının, məişət tullantılarının ekologiyaya hansı dərəcədə ziyan vura biləcəyini müəyyənləşdirməyə və ekoloji problemlərin həllində yaxından iştirak etməyə imkan verir.

Müəllim kimya fənnini tədris edərkən kimyanı həyatla əlaqələndirərək şagirdlərdə fənnə qarşı maraq oyatmalıdır. Məsələn, müəllim qeyri-üzvi kimya bölməsini tədris edərkən, xüsusilə azot, fosfor, kalium barəsində şagirdləri məlumatlandırarkən kimyanın kənd təsərrüfatındakı əhəmiyyətinə diqqət çəkməli, kənd təsərrüfatında kimyəvi birləşmələrin istifadəsindən bəhs edərkən torpağın tərkibindəki kimyəvi reaksiyaları, prosesləri misal gətirərək şagirdlərə motivasiya verməlidir.

Müəllim torpağın tərkibi haqqında məlumat verən zaman əvvəlcə bəsit məlumatlardan başlayıb bildirir ki, torpağın tərkibində çürüntü, qum, gil, mineral duzlar, su və hava vardır. Bunların mövcudluğunu sadə təcrübələrlə göstərə bilərik.

Əgər bir parça qaratorpağı alovda közərtsək, onun tərkibində olan bitki qalıqları, çürüntülər yanacaq, yerdə torpağın bir qədər açıq rəngli külü qalacaqdır. Deməli, torpağın qara olması onun tərkibindəki çürüntünün miqdarından asılıdır.

Təcrübəni davam etdirək. Közərdilmiş torpağın bir hissəsini stəkana töküb, üzərinə su əlavə edək. Bu suyun rəngi bulanacaqdır. Bulanmış suyu başqa stəkana süzüb kənara qoyaq. Əvvəlki stəkanın dibindəki çöküntünü bir neçə dəfə yusaq,

onun dibində təmiz qum qaldığını görərik. Bulanıq su tökülmüş stəkanı bir neçə saatdan sonra nəzərdən keçirsək, suyun durulduğunu və gilin stəkanın dibinə çökdüyünü müşahidə edərik. Deməli, torpağın tərkibində çürüntüdən başqa qum və gil də vardır. Suyu bulandıran da gildir.

İndi yenə közərdilmiş torpağın qalan hissəsini stəkana töküb üzərinə su əlavə edək və su durulana qədər gözləyək. Durulmuş suyu başqa təmiz bankaya boşaldıb süzgəc kağızından süzək. Alınmış suyu çini qaba töküb buxarlandıraq. Su buxarlanıb qurtardıqdan sonra qabın dibində ağ rəngdə ərp qalacaqdır. Bu, torpaq suyunda həllolmuş və süzgəc kağızından süzülən duzlardır. Torpaqda həmçinin su və hava da vardır. Suyun olmasını əl ilə hiss etmək olar. Əgər suya bir parça quru torpaq atsaq, ondan hava qabarcıqları çıxmağa başlayacaqdır. Bu da torpağın içərisindəki havadır. Deməli, torpağın tərkibində çürüntü, qum, gil, mineral duzlar, su və hava vardır. Onların miqdarı ayrı-ayrı torpaqlarda müxtəlifdir.

Çürüntü çox olan torpaqlar münbit torpaqlardır. Qum çox olan torpaqlar qumlu, qumsal, gil çox olan torpaqlar isə gilli torpaqlar adlanır.

Torpağın tərkibində su çox olduqda bataqlığa çevrilir, mineral duzlar çox olduqda şoranlaşır, əkin üçün yararsız olur.

Sonra müəllim torpağın əsas kimyəvi xassələrindən birinin onun element tərkibi hesab olunduğunu və məhz bu xassə üzərində onun genezisi və münbitliyinin formalaşdığını şagirdlərə çatdıraraq belə davam edir ki, torpağın element tərkibini bilmədən dərin kimyəvi tədqiqatların aparılması qeyri-mümkündür. Torpağın kütləsində kimyəvi elementlərin toplanmasına və kəmiyyət nisbətinə torpağın element tərkibi deyilir. Torpağın element tərkibini bildikdə onun münbitliyi haqqında fikir bildirmək daha rahat olur.

Torpaqda mütləq miqdarına görə elementlər bir neçə qrupa bölünür. Birinci qrupa O və Si aiddir ki, bunlar torpaq kütləsinin təxminən 80-90%-ni təşkil edir. İkinci qrupa 10 %-dən çoxunu təşkil edən Al, Fe, Ca, Mg, K, Na, C kimi elementlər daxildir. Bu iki qrupa daxil olan elementlər makroelementlər adlandırılır. Ti, Mn, N, P, S elementləri makro və mikroelementlər arasında keçid təşkil edir. Ba, Sr, B, Rb, Cu, V, Cr, Co, Mo, Li, Ni, Cs, Se elementləri isə mikroelementlər adlanır və onların miqdarı torpaqda $n\cdot10^{-3} – n\cdot10^{-10}$ %-lə ölçülür.

Torpağın tərkibində müxtəlif ionlar ( $K^{+}$, $Ca^{2+}$, $CO_3^{2-}$, $NO_3^{-}$, $SO_4^{2-}$ və s.) mövcuddur. Müəllim şagirdlərə torpağın tərkibindəki maddələri təyin etmək üçün laboratoriyada imkan yaratmalıdır. Şagirdlərin özləri torpaqdan götürdükləri nümunələr vasitəsilə bu təcrübələri müəllimin göstərişi əsasında yerinə yetirməlidirlər. Bu vasitə ilə şagirdlər torpağı tədqiq edərək onun aqrokimyəvi xassələrini öyrənə bilərlər. Torpaq nümunəsində mövcud olan bəzi ionları təyin etmək üçün müəllim şagirdlərə lazım olan reaktivləri söyləməli, təcrübə zamanı onlara köməklik göstərməlidir.

Təcrübələri apardıqdan sonra şagirdlər torpaq nümunəsinin tərkibi haqqında müəyyən qədər məlumata sahib olurlar. Müəllim şagirdlərə torpaqdakı üzvi maddələr, onların parçalanma prosesi, torpaqda humusun miqdarı və tərkibini izah edir, humusun əmələ gəlməsində üzvi maddələrin rolundan danışır. Bundan əlavə müəllim qeyd edir ki, torpağın rəngi humusun miqdarından asılıdır. Ən məhsuldar torpaqlarda 8-9% humus olur və belə torpaqlar qaratorpaqlar adlandırılır.

Daha sonra torpağın turşuluğunu və ya əsasiliyini təyin etmək üçün müəllim şagirdləri sərbəst şəkildə təcrübələri yerinə yetirməyə sövq edir.

Müəllim qeyd edir ki, torpağın turşuluğunu öyrənməklə onun bəzi xassələri barəsində fikir yürütmək olar. Torpağın pH-nı təyin etmək üçün ən dəqiq üsul turşuluğun təyini üçün hazırlanmış pH metr (kalorimetr) adlanan qurğu vasitəsi ilə edilən təyin üsuludur. Digər bir metod isə indikatorlar vasitəsilə turşuluğun təyinidir. Bu üsulün dəqiqliyi birinciyə nisbətən azdır.

Müəllim şagirdləri 2 qrupa bölərək onlardan torpağın pH-nı təyin etmələrini istəyir. Hər qrup torpağın pH-nı təyin etmək üçün ondan bir qədər nümunə götürüb sınaq şüşəsinə əlavə edir. Üzərinə kalium xlorid məhlulu töküb təxminən 5 dəqiqə şiddətlə qarışdırır. Bundan sonra həmin məhlulun üzərinə 2-3 damcı universal indiqator məhlulu əlavə edir. İndiqator əlavə etdikdən sonra alınan rəngi standart şkala ilə müqayisə edib torpağın turşuluğunu müəyyən edir. Müəllim uşaqlara bildirir ki, əgər məhlulda qələvi mühit yaranıbsa məhlul göy rəngə, turş mühit yaranıbsa qırmızı rəngə boyanır.

Təcrübədən sonra müəllim gübrələr, onların təsnifatı, kənd təsərrüfatındakı əhəmiyyəti barədə şagirdləri məlumatlandırır.

İlk öncə müəllim gübrələrin əhəmiyyətinə diqqət çəkərək deyir ki, kənd təsərrüfatı bitkilərindən yüksək məhsul əldə etmək və torpağın münbitliyini artırmaq üçün gübrələrdən istifadə etmək çox vacibdir. Gübrə bitkiləri qida maddələri ilə təmin etmək üçün torpağa, bəzən isə yarpaqlara (kökdənxaric qidalanma) verilən üzvi və mineral maddələrdir. Gübrələr bitkiləri asan mənimsəyə biləcəkləri formada olan qida maddələri ilə təmin edir. Həmçinin gübrələr torpağın fiziki, kimyəvi və bioloji xassələrinin yaxşılaşmasına səbəb olur ki, məhsulun keyfiyyətli olmasına gətirib çıxarır. Bundan sonra gübrələrin təsnifatı verilir.

Gübrələr müxtəlif cəhətlərdən təsnif olunurlar:

1. Tərkib və ya mənşələrinə görə: üzvi, mineral, üzvi-mineral, hormonal, bakterial gübrələr;
2. Tərkibindəki qida maddələrinin miqdarına görə: birtərəfli(sadə) və çoxtərəfli (mürəkkəb və qarışıq) gübrələr;
3. Təsiretmə səciyyəsinə görə: bilavasitə təsir edən, dolayı yolla təsir edən, stimulə edən gübrələr;
4. Torpağa göstərdikləri təsirə görə: qələvi, neytral, turş gübrələr.

Müəllim əkinçilikdə mineral, üzvi, meliorativ və bakterial gübrələrdən

istifadə olunduğunu qeyd edərək onlara aid misallar göstərir, gübrələrdəki əsas qida elementlərinin faizini şagirdlərə bildirir.

Üzvi gübrələrə peyin, quş zılı, müxtəlif bitki kompostları, sapropel, yaşıl gübrə (sideritlər) aiddir. Üzvi gübrələr öz müsbət təsirini 3-4 il və daha artıq müddətdə göstərir.

Peyin kənd təsərrüfatı heyvanlarının döşənəkli və döşənəksiz bərk və sulu ifrazat formasıdır. Döşənək peyinin zəruri tərkib hissəsi olub, onun fiziki və kimyəvi xassələrini yaxşılaşdırır. Döşənək üçün küləş, torf, saman, xəzəl, ağac kəpəyi və s. kimi müxtəlif materiallardan istifadə olunur Döşənəkli peyinin tərkibində təxminən 0.5 % azot, 0.25 % fosfor, 0.6 % kalium, 0.35 % kalsium olur. Müəllim əlavə edir ki, peyinin tərkibində bitkiyə lazım olan bütün qida maddələri olduğundan onu tam gübrə adlandırmaq olar.

Bundan sonra müəllim quş zılı və torfun gübrə kimi əhəmiyyətindən danışaraq dərsi belə davam etdirir:

Quş zılı bitki tərəfindən yaxşı mənimsənilən qida elementləri ilə zəngin olan üzvi gübrədir. Bu gübrənin tərkibində 6 %-ə qədər azot, 4.8 %-ə qədər fosfor, 2.6 %-ə qədər kalium ola bilər. Quş zılı torpağa verildikdən sonra 4-5 il müddətində öz təsirini göstərir.

Torf da peyin və quş zılı kimi üzvi gübrə olub ölmüş canlıların nəm və hava az olduğu şəraitə yarımparçalanması zamanı əmələ gəlir. İstənilən növ torf parçalanmamış bitkilərdən, çürüntüdən və mineral maddələrdən ibarətdir.

Müəllim torfun yuxarı, aşağı və keçid olmaqla üç qrupa bölündüyünü, yuxarı torfun yuxarı (oliqatrof) bataqlıqda qurumuş yarpaqların tüklərindən və qida elementlərinə az tələbatlı bitkilərdən (tüklücə, landan ağacı (həmişə yaşıl zəhərli kol) əmələ gəldiyini, qida maddələri ilə zəngin olmayıb, az küllüyə (5%-ə qədər), turş reaksiyaya ($pH<5$) və aşağı dərəcədə humuslaşmaya (5-25%) malik olduğunu bildirir. Daha sonra aşağı və keçid torfu barədə məlumat verilir.

Kənd təsərrüfatında torf müxtəlif istiqamətlərdə istifadə olunur. Yüksək nəm saxlama tutumuna və uduculuq xassəsinə görə torf heyvanların altına döşəmə materialı kimi istifadə olunur. Yuxarı torf ən böyük nəm tutumuna malikdir. Udma həcmi 100 qram quru torf maddəsinə görə 100-200 mq·ekv., olur.

Müəllim qeyd edir ki, döşəmə üçün istifadə olunan torf 50%-dən çox nəmliyə malik olmamalıdır. Döşəmə üçün torfu hazırlamaq məqsədi ilə torf olan ərazilərin səthi torf çıxaran maşın ilə boşaldılır, lazım olan nəmliyə qədər qurudulur və sonra dağıdılır. Qurudulmuş torf bir yerə toplanır və nəqliyyat vasitəsinə yığılır.

Torf müxtəlif kompostların hazırlanması üçün istifadə olunur. Əhəng, fosforit unu, peyin ilə kompost hazırlamaq üçün küllülüyü 25%-ə qədər olan, orta parçalanmış torf istifadə olunur. Peyin şirəsi, bitki qalıqları ilə kompost hazırlamaq üçün istənilən növ torf istifadə etmək olar.

Müəllim üzvi gübrələr barəsindəki məlumatları yaşıl gübrələr ilə yekunlaşdırır və bundan sonra mineral gübrələrə keçid alır.

Yaşıl gübrələr. Təzə yaşıl bitkilər torpağa qatılır ki, torpaqda üzvi maddələrin və azotun miqdarı çox olsun. Torpağın bu üsul ilə gübrələnməsi siderasiya adlanır. Torpağa yaşıl gübrələr verdikdə kül elementləri ona qayıdır, üzvi maddələrin miqdarı xeyli artır.

Sideral bitkilərin istifadə üsulları üç qrupa bölünür: tam istifadə etmə, biçilmiş və xora (çalınmış otun yerində bitən təzə ot). Tam istifadə zamanı torpağa bitkinin yerüstü və kök hissəsi qatılır. Biçmə üsulunda bir sahədə bitmiş bitki biçilərkən digər sahəyə verilir. Xora üsulunda isə sideral bitki biçilərkən yem və ya başqa məqsəd üçün istifadə olunur, gövdə qalığı, köklər və cücərtilər yaşıl gübrə kimi torpağa verilir. Yaşıl gübrənin səmərəliliyi bitkinin növündən, məhsuldarlığından, torpağa verilmə müddətindən və üsullarından asılı olur.

Yaşıl gübrənin parçalanma sürəti torpağa verilmə dərinliyindən asılıdır. Yüngül, az humuslu torpaqlara yaşıl gübrəni şum təbəqəsi dərinliyinə, ağır, gilli torpaqlarda isə 10-12 sm dərinliyə verilməlidir. Yaşıl gübrəni az miqdarda mineral gübrə ilə birgə istifadə etdikdə səmərəlilik artır.

Üzvi gübrələr haqqında məlumat verdikdən sonra müəllim mineral gübrələrin növlərinə, təsnifatına, onların əhəmiyyətinə dair məlumat verərək qeyd edir ki, tərkibində bitkilər üçün qida elementləri olan və məhsulun keyfiyyətini yüksəltmək üçün torpağa verilən duzlara mineral gübrələr deyilir. Uzun müddət torpadan istifadə etdikdə ondakı mineral maddələr tükənir və bu da məhsulun keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Belə torpaqlarda bitkilər üçün vacib olan qida maddələrini bərpa etmək zərurəti yaranır. Bu məqsədlə mineral gübrələrdən istifadə edilir.

Mineral gübrələr tərkibinə, xassələrinə, qida maddələrinin növünə və s. görə bir neçə yerə ayrılır. Mineral gübrələrin tərkibində bir neçə element olur. Bunların bəziləri bitkilərə ziyan vura bilir. Məsələn, sadə gübrələrdə (ammonyak şorası, sidik cövhəri, superfosfat) mikroelementlər, sulfatlarda kükürd, kalium duzlarında xlor olur ki, bunların miqdarı az olduqda bitkiyə xeyir verir, çox olduqda isə ziyan vurur.

Müəllim aqrokimyəvi əhəmiyyətinə görə gübrələrin birbaşa və dolayı gübrələrdən ibarət olduğunu bildirib hansı gübrələrin birbaşa, hansıların isə dolayı gübrə adlandırıldığını şagirdlərə izah edir.

Gübrənin tərkibindəki qida elementi birləşmə halında bitkilər tərəfindən birbaşa mənimsənilirsə, belə gübrələr birbaşa gübrələr adlanır. Dolayı gübrələr torpaqda olan qida maddələrini torpağın fiziki, kimyəvi və bioloji xassələrini yaxşılaşdırmağa yönəldir. Məsələn, torpağa üyüdülmüş əhəngdaşı və ya dolomit əlavə etdikdə onun turşuluğu azalır. Birbaşa mineral gübrələr tərkibində olan qida elementlərinin növünə görə azotlu, fosforlu, kaliumlu və s. olur.

Azot bitkinin qidalanması üçün əsas element sayılır. Bitki azotla yaxşı qidalandıqda yarpaqları tünd yaşıl rəngdə olur və normal bar orqanları əmələ gəlir. Əks halda isə bitki inkişafdan qalır, yarpaqları ağ-yaşıl və sarımtıl yaşıl rəngdə olur. Saralma yarpaqların damarlarından başlayır və getdikcə bütün yarpaq səthinə yayılır.

Daha sonra müəllim azot, kalium, fosfor gübrələrinə misallar göstərərək onların tərkibindəki azot, kalium və fosfor elementlərinin faizi, verilmə zamanı barədə şagirdləri məlumatlandırır. Müəllim qeyd edir ki, azot gübrələrinə ammonyak şorasını, sidik cövhərini, karbamidi misal göstərmək olar.

Ammonyak şorasının tərkibində təxminən 33-35% azot elementi var. Bu gübrə suda asan həll olur. Torpağa bitkilərin əkilməsindən əvvəl verilməlidir, şitillik torpaqları əlavə yemləndirmələrdən ötrü əlverişlidir.

Ammonium sulfat azot gübrəsi olub tərkibində 20-21% azot elementi olur.

Karbamid də ammonyak şorası kimi azot gübrəsidir. Onun tərkibində 46% azot elementi var. Suda asan həll olur, əsasən əlavə yemləmələrdə istifadə olunur.

Azot gübrələri ilə şagirlər tanış edildikdən sonra kalium gübrələri barədə məlumat verilərək deyilir ki, kalium gübrələrinin tərkibində ballast elementləri (Na, Cl) də olur. Yüksək dozada sistematik gübrələmə apardıqda onlar torpaqda toplanaraq onun münbitliyini aşağı salır. Ən geniş yayılan kalium gübrələrinə kalium-xloridi, kalium sulfatı, təbii kalium duzu xammalını (əsasən silvinit) və s. misal göstərə bilərik.

Kalium gübrələrinin tərkibində olan Cd, Hg, Pb, Al kimi metallar canlı orqanizmdə toplana və qrunt sularına daxil ola bilərlər. Kaliumun yuyulması torpağın qranulometrik tərkibindən, tərkibindəki humusun və kalium ehtiyatının miqdarından, su rejimi tipindən asılıdır.

Müəllim əlavə edir ki, kalium sulfat ən yaxşı kalium gübrəsidir. Tərkibində 45-50% kalium elementi var, suda yaxşı həll olur. Əlavə olaraq tərkibində 18% kükürd elementi də vardır. Ştilliklərdə torpağın əsas hazırlanmasında, ştil qarışıqlarında və əlavə yemləmələrdə istifadə olunur.

Kalium şorası kalium azot gübrəsidir. Onun tərkibində 38% kalium və 13% azot vardır. Suda yaxşı həll olur və saxlanır. İstixanalarda bitkilərin əlavə yemləndirilməsi üçün ən yaxşı gübrələrdən biridir.

Kalimaqneziya kalium-maqnezium gübrəsidir. Onun tərkibində 26-28% kalium, 16% maqnezium var. Əsas hazırlanmalarda və əlavə yemləndirmələrdə istifadə edilir.

Bundan sonra müəllim fosfor gübrələri ilə şagirdləri tanış edir və kimyəvi tərkibinə və suda həll olmalarına görə bir-birindən fərqləndiyini şagirdlərə çatdırdıqdan sonra belə davam edir ki, suda həll olan gübrələr bitkilər tərəfindən daha yaxşı mənimsənilir. Suda həll olan fosforlu gübrələrə sadə və ikiqat superfosfatları, presipitatı, termofosfatı misal göstərmək olar.

Sadə superfosfat fosforitlərin və ya flüorapatitlərin sulfat turşusunun iştirakı ilə parçalanma məhsulur. Bu parçalanmada əsas məqsəd suda həll olmayan təbii fosfor minerallarının suda həll olan birləşmələrə çevrilməsidir.

$$2CaF(PO_4)_3 + 7H_2SO_4 + 6.5H_2O \rightarrow (Ca(H_2PO_4)_2 \cdot H_2O + 3(CaSO_4 \cdot 0.5H_2O) + 2HF$$

Reaksiya nəticəsində alınan gübrə kütləsinin tərkibində olan gibsin torpağın şoranlaşmasının qarşısını almağa kömək etdiyi ifadə olunaraq bildirilir ki, tənlikdən də göründüyü kimi prosesdə su da iştirak edir. Ona görə də sadə superfosfat istehsalında monohidratdan deyil, 68%-li $H_2SO_4$-dən istifadə edilir.

Sadə superfosfatlardan sonra ən çox istehsal olunan fosforlu gübrə ikiqat superfosfatdır və ikiqat superfosfat almaq üçün təbii fosforlar sulfat turşusu iştirakı ilə fosfatlara təsir edilir:

İkiqat superfosfat fosforla zəngin gübrədir. Onun tərkibindəki $P_2O_5$-in miqdarı sadə superfosfatdan 2-3 dəfə çoxdur.

Müəllim presipitat barəsində məlumatı çatdırarkən qeyd edir ki, presipitatı almaq üçün kalsium fosfata sulfat turşusu ilə təsir edilir. Alınan fosfat turşusunu çöküntüdən ayırdıqdan sonra, ona sönmüş əhənglə təsir edilir. Əmələ gələn duz suda pis həll olduğu üçün kristalhidrat şəklində çökür. Buna görə də bu gübrəyə presipitat adı verilmişdir. Latınca “praecipitare” “çökdürmək” deməkdir. Presipitatın tərkibində 30-35% $P_2O_5$ olur.

Tomas – şlakın tərkibinin $Ca_3(PO_4)_3 \cdot CaO$ formulu ilə ifadə olunduğunu bildirən müəllim onun tərkibindəki $P_2O_5$-in miqdarının 10-20%-ə qədər olduğunu qeyd edir.

Daha sonra müəllim monoammofos və diammofosun tərkibi, alınması barədə şagirdləri məlumatlandırıb, nəhayət, nitrofoska ilə mövzunu yekunlaşdırır. Ammofosun tərkibində 44% $P_2O_5$ və 11% azot olur. Onun alınma reaksiyası:

$$H_3PO_4 + NH_3 \rightarrow NH_4H_2PO_4$$

Alınan duza monoammofos deyilir. Neytrallaşma dərəcəsindən asılı olaraq diammofos da alınır və onun tərkibində 52% $P_2O_5$, 20% azot olur.

$$H_3PO_4 + 2NH_3 \rightarrow (NH_4)_2HPO_4$$

Nitrofoska üçqat gübrədir. Tərkibində fosfor, azot və kalium var. Bu gübrə $(NH_4)_2HPO_4$, $NH_4NO_3$ və KCl (yaxud $K_2SO_4$) duzlarının əridilmiş qarışığıdır.

## İstifadə edilmiş ədəbiyyat:

1. A.Hüseynov, N.Hüseynov. Torpaq kimyası, Bakı, 2012
2. E.Əlizadə, N.Seyfullayeva, İ.Rakçe-yeva, Y.Şabanova. Coğrafiya, Bakı, 2013.
3. Q.Məmmədov. Torpaqşünaslıq və torpaq coğrafiyasının əsasları, Bakı, 2007.
4. Ə.A.Əlbəndov. Ümumi kimya, Bakı, 2011
5.http://anl.az/down/meqale/adalet/2010/oktyabr/136261.htm

*М.Н.Гусейнов, Э.Н.Алибейли*

**Связь химии с сельским хозяйством в девятом классе**

**РЕЗЮМЕ**

В девятом классе на уроках химии изучают связь химии с сельским хозяйством в котором заключаются определенные темы, в которых указывается соединение химических элементов, а так же привлечь внимание учеников внедрению информации, использование удобрений и лекарственных препаратов причиняющие ущерб экологии.

*M.N.Huseynov, E.N.Alibeyli*

**Linking the chemistry lessons with agriculture in 9th class**

**SUMMARY**

The main purpose of linking chemistry lessons with agriculture in 9th class is to direct the students' attention to importance of chemical compounds in agriculture while teaching some topics, give important information related with application of chemistry in different field of agriculture and fertilizers which are harmfull.

**Açar sözlər:** indiqator, gübrə, qida elementi, ion, azot, fosfor, kalium

**Ключевые слова:** индикатор, удобрение, основной элемент, ион, азот, фосфор, калий

**Key words:** indicator, fertilizer, main element, ion, nitrogen, phosphorus, potassium.